**A Z Ə R B A Y C A N   R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

---

№ 328 «28» 12 **2021-ci il**

**Azərbaycan Respublikasının Binəqədi rayonu ərazisində 2022-ci ilin yanvar-mart ayları ərzində 2007-ci il təvəllüdlü kişi cinsli vətəndaşların yaşayış və ya olduğu yer üzrə ilkin hərbi qeydiyyata alınmasının təşkili haqqında**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1283-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını rəhbər tutaraq, 2022-ci il ərzində 15 yaşı tamam olan 2007-ci il təvəllüdlü Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının yanvar-mart aylarında yaşayış və ya olduğu yer üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsində ilkin hərbi qeydiyyata alınmasının keyfiyyətli və vaxtında yerinə yetirilməsi məqsədilə

**qərara alıram:**

1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin tələblərinə uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsində 05.01.2022-ci il tarixdən 30.03.2022-ci il tarixədək 2007-ci il təvəllüdlü kişi cinsli vətəndaşların ilkin hərbi qeydiyyata alınmasının keyfiyyətli və vaxtında həyata keçirilməsi məqsədi ilə yaradılmış ilkin hərbi qeydiyyata alınma komissiyasının tərkibi aşağıdakı kimi təsdiq edilsin.

**Komissiyanın sədri:**

Azərbaycan Respublikasının Səfərbərlik və
Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin
Binəqədi rayon İdarəsinin rəisi, polkovnik-leytenant — Nicat Həsənov

**Komissiyanın üzvləri:**

1. Hərbi-həkim komissiyasının sədri - Hüseynova İradə Əkbər qızı
2. Cərrah - Haqverdiyev Əlisəfa Xıdır oğlu
3. Terapevt - Hüseynova İradə Əkbər qızı
4. Nevropatoloq - Həsənova Sevinc Həsən qızı

| | |
|---|---|
| 5. Psixiatr | - Fərəcli Orxan Vaqif oğlu |
| 6. Oftalmoloq | - Əliyeva Səidə Fuad qızı |
| 7. Otorinolarinqoloq | - Rzayeva Elnarə Vidadi qızı |
| 8. Stomatoloq | - Abbaszadə Nizami Firudin oğlu |
| 9. Dermatovenероloq | - Turabov Məhəmməd Qurban oğlu |
| 10. Komissiyanın katibi | - Salahova Xatirə Rasim qızı |

2. Hərbi-həkim komissiyasının sədrinə tapşırılsın ki, hərbi-həkim komissiyası üzvlərinin vaxtında komissiyada olmalarını təmin etməklə işin keyfiyyətli təşkilinə, tibbi müayinə zamanı xəstəliyi müəyyən edilmiş gənclərin rayon mərkəzi xəstəxanasında müalicəsini təmin etməklə işin sistematik həyata keçirilməsinə nəzarət etsin, hərbi-həkim komissiyasının keyfiyyətlə işləməsi üçün zəruri avadanlıq və tibbi ləvazimatlarla təmin olunması məqsədilə aidiyyəti üzrə müvafiq tədbirlər görülsün.

3. 2007-ci il təvəllüdlü gənclər və hər hansı bir səbəbdən hərbi qeydiyyat üçün sənədləri olmayan böyük yaşlı çağırışçıların hərbi qeydiyyata götürülməsi məqsədi ilə rayonun əlaqədar idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırılsın ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinə hərtərəfli köməklik göstərilməsini təmin etsinlər.

4. İlkin hərbi qeydiyyata alınmaq üçün gələn 2007-ci il təvəllüdlü vətəndaşların lazım olan sənədlərlə nəzərdə tutulmuş qaydada Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinə gəlməsinə MKİS-nin rəisləri, yataqxana komendantları, Rayon İcra Hakimiyyəti başçısının qəsəbələr üzrə nümayəndəlikləri köməklik göstərsinlər.

5. Yanvar-mart ayları ərzində rayon ərazisində yerləşən 11, 20 və 21 saylı poliklinikaların baş həkimlərinə tapşırılsın ki, 2007-ci il təvəllüdlü gənclərin ambulator kartalarından çıxarışlarını və mövcud qanunvericilikdə nəzərdə tutulmuş laborator tibbi müayinələrinin vaxtında keçirilməsini və nəticələrini Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinə göndərilməsini təmin etsinlər.

6. İlkin hərbi qeydiyyata alınma ilə əlaqədar Rayon İcra Hakimiyyətinə vaxtaşırı məlumat verməklə, Sərəncamın vaxtında yerinə yetirilməsinə nəzarət Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinin rəisi, mayor Həsənov Nicat Zəfər oğluna tapşırılsın.

7. Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən, məsləhətçi** **Cəmilə Məmmədova**